# Musa ƏLƏKBƏRLİ



Amansız ölüm qələm yoldaşımız, tanınmış şair Musa Ələkbərlini aramızdan apardı.

Musa Ələkbərli (Musa Malik oğlu Ələkbərov) 1950-ci il aprelin 25-də Gədəbəy rayonunun Ataxal kəndində anadan olub. Orta məktəbi Qaramurad kəndində bitirib. Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. Əmək fəaliyyətinə "Gənclik" nəşriyyatında başlayıb. Uzun illər orada redaktor vəzifəsində çalışıb. "Şur" nəşriyyatının direktoru, "İncəsənət" jurnalının redaktoru olub.

Bədii yaradıcılığa orta məktəbdə oxuyarkən başlayıb. İlk mətbu şeiri Gədəbəydə çıxan "Tərəqqi" qəzetində dərc edilib. Sonralar respublika mətbuatında müntəzəm çıxış edib.

İlk qələm təcrübələri maraqla qarşılanıb. İyirmidən artıq kitabın müəllifi olub. "Ürəyimin işığında", "Bəlkə bir də görüşdük", "Gözlərim yol çəkir", "Sevgi bulağı", "Aydanım Ay işığı", "Dünya sevgidən doğulub", "Tanrı mənə söyləməsə, yazmaram", "Gəlir türkün səadəti", "Ürəyimin qapısından keçənlər", "Gözümdə ağlayan bulud", "Məndən şeir istə", "Tanrı mənə söyləməsə yazmaram", "Bəlkə bir də görüşdük", "Gözümdə ağlar bulud", "Sözün qiyaməti qopan yerdəyəm" və s. kitabları şairə geniş oxucu auditoriyası qazandırıb. Şeirləri türk, rus, ingilis, özbək, tacik, Belarus, latış və s. dillərə tərcümə olunub.

Ədəbi uğurlarına görə Azərbaycan Yazıçılar Birliyinin "İlin ən yaxşı şeiri" nominasiyası üzrə İsa İsmayılzadə adına mükafatına layiq görülüb. "Pərvanə" ədəbi dərnəyinin rəhbəri olub.

Musa Ələkbərlinin əziz xatirəsi daima poeziyasevərlərin qəlblərində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**